# BMT-nin İnkişaf Proqramının nümayəndəsi Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı görülən işlər barədə məlumatlandırılıb

Azərbaycanın insan hüquqları üzrə müvəkki (ombudsman) Səbinə Əliyeva Birləşmiş Millətl Təşkilatının (BMT) İnkişaf Proqramının ölkəmizdəki rezident nümayəndəsinin səlahiyyətlərini i ra edən Alessandra Rokkasalvo ilə görüşüb. B barədə AZƏRTAC-a Ombudsman Aparatından məl mat verilib.



Görüşdə müvəkkil qonağa ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyəti barədə geniş məlumat verib, beynəlxalq qurumlarla, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları, xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları ilə sıx əməkdaşlıq əlaqələrindən bəhs edib.

Biznes və insan hüquqları sahəsində fəaliyyəti barədə danışan ombudsman bu sahədə dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirildiyini, BMT tərəfindən qəbul olunmuş "Biznes və insan hüquqları sahəsində Rəhbər Prinsiplər"in ölkəmizdə milli qanunvericiliyə implementasiyası və milli fəaliyyət planının hazırlanması üzrə işlərin aparıldığını vurğulayıb. Həmçinin ombudsman təsisatı tərəfindən "Biznes və insan hüquqları üzrə Rəhbər Prinsiplərə ümumi baxış" adlı vəsaitin hazırlandığını diqqətə çatdırıb.

İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilmiş faktaraşdırıcı missiyalara toxunan S.Əliyeva Ermənistanın işğalçılıq siyasəti nəticəsində beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının pozulduğunu, işğal nəticəsində yaranmış mina probleminin aradan qaldırılmasında beynəlxalq təşkilatların yaxından iştirakının zəruriliyini, bununla bağlı xüsusi "Ad hoc" hesabatların hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara, xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarına ünvanlandığını qeyd edib.

Söhbət zamanı bu ildə ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində mümkün əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda COP29 zamanı milli insan hüquqları institutlarının fəal iştirakının vacibliyi vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Azərbaycan.- 2024.- 18 aprel, № 77.- S.2.